# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**"Azərbaycanda icbari tibbi sığorta mexanizmlərinin gücləndirilməsi" (Faza 2)**

**İcra müddəti:** 15.06.2022 - 15.06.2024

**ŞT ölkələri:**
Azerbaijan

**Aİ-nin maliyyə yardımı:** € 1 500 000

**Ümumi büdcə:** € 1 500 000

**İcraçı təşkilat(lar):**
National Health Insurance Fund under the Ministry of Health of Lithuania, State Agency on Mandatory Health Insurance of Azerbaijan

Funded by the European Union

**Sosial media hesablarına keçidlər:**
,

**Internet səhifəsi:**

**Layihənin təsviri:**

Cari Tvinninq Layihəsinin məqsədi İcbari Tibbi Sığorta (İTS) sahəsində Azərbaycan Hökumətinin institusional potensialının gücləndirilməsi və tibbi xidmətin əlçatanlığının və keyfiyyətinin nəzərəçarpacaq dərəcədə yaxşılaşdırılmasının təmin edilməsi, cibdən ödənişlərin və bununla bağlı yoxsulluğun azaldılmasının təmin edilməsidir. Məqsəd həmçinin səhiyyə sistemləri sahəsində davamlılığının artırılması və bütün əhali üçün səhiyyə xidmətlərinin ümumi əhatə dairəsinin təmin edilməsi, habelə səhiyyə xidmətləri və məhsullarının keyfiyyətini, qiymətini və istifadəsini ölçmək üçün bacarıqların inkişaf etdirilməsi üçün səhiyyə sistemlərinin gücləndirilməsi və davamlı həlli yollarının tapılmasına yönəlmiş Şərq Tərəfdaşlığının məqsədləri və Ümumdünya Səhiyyə Təşkilatının  gündəliklərinə uyğun olaraq, səhiyyə qayğısı sahəsində resursların məhsuldarlığının artırılmasıdır. Daha konkret desək, layihə dörd istiqamətdə işləmək üçün strukturlaşdırılmış fəaliyyətlər vasitəsilə müvafiq benefisiar quruma potensialın yaradılması və məsləhətçi yardımın göstərilməsi məqsədi daşıyır: Nəticə 1 tədbirlər milli və regional səviyyələrdə Azərbaycanın dövlət müəssisələrinin hüquqi bazasını və institusional potensialını təkmilləşdirmək məqsədi daşıyır.  Nəticə 2 tədbirləri risklərin idarə edilməsi, maliyyə və tibbi audit, monitorinq və qiymətləndirmə kimi sahələrdə İTSDA potensialını artırmaq və ehtiyaclarını ödəmək məqsədi daşıyır. Nəticə 3 tədbirləri İTSDA-nin proqnozlaşdırma və planlaşdırma qabiliyyətini təkmilləşdirmək məqsədi daşıyır ki, bu da yaxşı fəaliyyət göstərən İTS sxemi üçün vacib ilkin şərtlərdir. Nəticə 4 tədbirləri İTSDA sisteminin rəqəmsallaşma prosesinin təkmilləşdirilməsini asanlaşdırmaq və bununla da ölkənin ümumi rəqəmsal transformasiyasına töhfə vermək məqsədi daşıyır.

**Gözlənilən nəticələr:**

KOMPONENT 1:
İnsanlara adekvat, yüksək keyfiyyətli, profilaktik və müalicəvi tibbi xidmətin göstərilməsini təmin etmək üçün İTS (İcbari Tibbi Sığorta) sisteminin hüquqi və institusional bazaları gücləndirilib.

KOMPONENT 2:
Risklərin idarə edilməsi, maliyyə və tibbi auditlər, monitorinq və qiymətləndirmə sistemləri məlumatların toplanması, emalı, nəzarəti və hesabatlarının təkmilləşdirilməsi yolu ilə modernləşdirilib.

KOMPONENT 3:
Tibbi sığortanın təmin edilməsində yeni aktuar modellər və proqnozlaşdırma üsulları hazırlanıb.

KOMPONENT 4:
İTS (İcbari Tibbi Sığorta) sisteminin rəqəmsallaşdırılması asanlaşdırılıb.